## AĞ ÖLÜMÜN-QARA FƏSADI

**UNUTMA!** Narkotik ən ağıllı və güclü adamları da öldürür!

- Narkotik sənin psixikana təsir edəcək;
- Fikir və hisslər sənə aid deyil,
- Ağlın, zehnin yatır, iradən zəifləyir,
- Sənin gələcəyin,
- Perspektivin-yoxdur!
- Sən əbədi ailəsiz, dostlarsız, yaxınlarsız qalmağa risk edirsən!

**Narkotik orqanizmə düşdükdə:**

- Tənəffüs azalır
- Ürəkbulanma, qaytarma baş verir.
- Gözlərin bəbəkləri daralır.
- Dərinin rəngi avazıyır və qaşınma olur.
- Bədəndə mayenin yığılması və həzm sistemində pozğunluqlar nəticəsində qəbizlik əmələ gətirir.
- Allergik reaksiyaların nəticəsində boğulma halları baş verir ki, bu da ölümlə nəticələnir.



**NARKOTİK sənin ruhunu, sənin bədənini məhv edib səni həyatdan MƏHRUM edə bilər!**

## NARKOMANLAR nadir hallarda 30 yaşı keçir



**Narkomaniya- ilk istifadədən asılılıq yaradan patoloji xəstəlikdir**

Bu elə bir maddədir ki, insanın düşüncəsinə təsir edir və müəyyən mənada beyni tənzimləyir. Bu tənzimləmə hər cür psixoloji və fiziki defektlərlə nəticələnə bilər.
Bu o deməkdir ki, narkotik maddələr əhval-ruhiyyəni, düşüncəni dəyişməyə qadirdir.

**Beyin qabığını 7 dəqiqəyə məhv edə bilən güc – narkomaniya**
**Ən qorxulu xəstəliklər mənbəyi - narkomaniya**
**Ədəbsizlik, alçaqlıq mənbəyi – narkomaniya**


**Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi qrupu**

**Tel:** (+994 12) 498 25 28; (+994 12) 498 58 82; (+994 12) 493 12 37
**E-mail:** info@nmdk.gov.az
**Web:** www.nmdk.gov.az


Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə DÖVLƏT KOMİSSİYASI

# ÖZÜNƏ İNAN, HƏYATI SEV NARKOTİKLƏRƏ YOX DE!



## İnsanlar narkomaniya adlanan tora necə düşürlər?

Araşdırmalardan bəlli olur ki, narkotik maddələrdən istifadə edən insanlarda ilk əvvəl xoş hisslər yaranmağa başlayır və istifadəçilər bu aldadıcı təsirin, yəni sevinc və enerjinin həmin maddələrdə olmasına inanmağa başlayır. Bu qənaətin yanlış olduğunu isə deməyə heç ehtiyac yoxdur. Əgər hər şey narkotik istifadəçilərinin düşündüyü kimi olsaydı, cəmiyyətin ən fərəhli, ən gümrah, öz karyerasında və şəxsi həyatında uğur qazanan insanları onlar olardılar. Narkotikin aludəçisi olanlarla aparılan sorğular göstərir ki, ailədə və işdə yaranan problemlər, psixoloji zəiflik, düzgün seçilməyən mühit və digər müxtəlif səbəblər onları narkotikdən istifadəyə istiqamətləndirib. Əlbəttə, narkotikdən sırf əyləncə məqsədilə istifadə edənlərin də olması faktdır.

## Uçurumun kənarında

Narkotik istifadə edən insanlardan doğulan körpələrin fiziki qüsurlu olması qaçılmazdır. Bundan başqa, bu mühitdə böyüyən, tərbiyə alan uşağın hansı psixoloji problemlərinin olmasını təsəvvür etmək çətin deyil.



## Fiziki təsirləri

**Beyin və Mərkəzi Sinir sistemində**
Dəlilik, erkən ağlını itirmə, şüur itkisi, yuxusuzluq, iflic, sayıqlama (ağıl xarici davranışlar), hallüsinasiya (qorxu, xəyal görmə, səs eşitmə), zəka və yaddaş pozğunluğu

**Həzm sistemində**
Ürəkbulanma, qusma, qarın ağrıları, qəbizlik, ishal, mədə və bağırsaq spazmları, qanama və yaraları, qastrit, xora və s.

**Qaraciyərdə**
Bu zəhərin orqanizmdən atılmasında ən ağır vəzifə bu orqanlara düşməkdə olub, qaraciyər və böyrəklərdə böyük qəza və toxunmalara, qaraciyərdə çatışmazlıq, yağlanma, sərtləşmə (sirroz)

**Böyrəklərdə**
Albumin, qan və sidik çoxalması, tıxanmalar, ağır böyrək xəstəlikləri

**Gözlərdə**
İşıq və məsafədə uyğunlaşmazlıq, çaplik, gecə korluğu, göz bəbəyi böyüməsi, kiçilməsi, göz adele iflici

**Tənəffüs sistemində**
Nəfəs darlığı, öskürək, boğulma hissi, tənəffüs iflici

**Qanda**
Qansızlıq, qan zəhərlənmələri, qan hüceyrələrində miqdar dəyişiklikləri, qanın laxtalanması və qanqren

## Narkotik istifadəsi-boşluğa atılan addımdır. Azadlığını qoru!

**Narkotik orqanizmə düşdükdə:**

- Tənəffüs azalır;
- Ürəkbulanma, qaytarma baş verir;
- Gözlərin bəbəkləri daralır;
- Dərinin rəngi avazıyır və qaşınma olur;
- Bədəndə mayenin yığılması və həzm sistemində pozğunluqlar nəticəsində qəbizlik əmələ gətirir;
- Allergik reaksiyaların nəticəsində boğulma halları baş verir ki, bu da ölümlə nəticələnir.

**Narkomanlar üçün xarakterikdir:**

- Dəyişkən əhval-ruhiyyə
- Əllərin əsməsi
- Tərləmə
- Zəiflik
- Yaddaşın pisləşməsi
- İradənin zəifliyi
- İntellektin azalması
- Nitqin pozulması
- Narkomanlar bu maddələrə o qədər aludə olurlar ki, tələbatlarını bir müddət ödəyə bilmədikdə böyük problemlərlə qarşılaşırlar. Əgər bir sutkadan çox orqanizmə narkotik daxil olmursa, aşağıdakı vəziyyət nəzərə çarpır:
- Qıcolmalar
- Güclü əzələ ağrıları
- Qarında ağrılar
- Qaytarma
- Qarın işləməsi
- Əsəb gərginliyi



**Dünyanı, insanları fəlakətdən qoruyaq!!!**